ədalət 2019.-15 avqust.- S.6.

# Xor görülən "Şah İsmayıl ordeni"ndən oğurlanan "Tomris" filminə

## Tariximiz, cəmiyyətimiz və münasibətimiz

**Bu yaxınlarda fraqmentləri yayımlanan Akan Satayevin rejissorluğu ilə çəkilmiş, ssenaristi tarixçi Timur Jaksılıkov olan "Tomris" filminin tarixi təhriflər əsasında çəkilməsi təəssüf doğurucu haldır. Bu hadisədə tək sevinəcəyim hal Tomrisin bir Türk qızı olaraq təqdim olunmasıdır. İlk baxışdan Azərbaycan tarixinin daha bir oğurlanmış parçası əsasında çəkilən "Tomris" filmi ilə "Şah İsmayıl ordeni" arasında heç bir məntiqi əlaqənin mövcudluğu görsənmir. Lakin istər tarixi olsun, istərsə də siyasi, müəyyən bir proses, digər birinin baş verməsində birbaşa olmasa da dolayı yolla rol oynadığı gerçəyini də göz ardı etmək olmaz. Bir hadisə baş veribsə bu indi yaranmağa başlamış bir proses deyil və bunun daxili və xarici olmaqla bir çox tarixi, siyası, ictimai səbəbləri mövcuddur. İlk öncə onu vurğulamağı vacib hesab edirik ki, bu məqalənin yazılmasında əsas məqsədimiz hansısa sosial şəbəkə statusuna cavab vermək deyil. Çünki, professional tarixçilikdə o halda hər hansı bir reaksiya verilir və opponent fikir söylənilir ki, o ciddi, ilkin qaynaqlar əsasında hazırlananaraq, müqayisəli təhlil üsulundan istifadə olunmuş və yeniliklərlə zəngin bir fikir olsun. Hazırda tariximiz üçün daha əhəmiyyətli hesab etdiyimiz bir sıra məsələlər mövcuddur ki, əsas diqqət ona yönəldilməlidir. Bunlardan da biri Azərbaycan tarixinin təhrif olunması və ya oğurlanmasıdır. Bunun bir çox səbəbləri mövcuddur.**

### *Cəmiyyətimizdəki fikirlər və tarixçiliyə qeyri-ciddi yanaşma*

İstər dövlət məmuru olsun, istər adicə bir fəhlə, hər kəs bu cəmiyyətin üzvüdür və onların istənilən mövzuda müvafiq sərbəst fikri mövcuddur. Söylənilən hər bir fikrə o fikir yanlış olsa belə hörmətlə yanaşmaq lazımdır. Bir fikir həqiqəti əks etdirən digər fikirlərlə bir dəfə tərs mütənasib ola bilər. Hətta bu iki dəfə də təkrarlana bilər. Lakin, bu hal daimi davam edirsə və həqiqətə uyğun deyilsə demək ki, bu ya hansısa bir qüvvələrin propaqandasıdır, ya da qeyri-peşəkarlıqdır. İstərdik ki, niyə xor görülən "Şah İsmayıl ordeni" fonunda Şah İsmayıl, şiəlik və Qızılbaşlıq məsələlərinə bir azca toxunaq. "Tomris" filmi ilə nə əlaqəsi deyə soruşmaq zərurəti hiss etdinizsə, onu vurğulayım ki, bəzi insanlar cəmiyyətdə fikir formalaşdırmaqda qismən təsir edici olur - onlar qeyri-peşəkar olsalar da. Çünki, cəmiyyətdə tarixi hadisələr və proseslər yanlış təfəkkür edilərsə, gələcəkdə tariximizin ayrılmaz hissəsi olan Tomris və Massaget tarixi kimi oğurlanacaqdır. Yəni ki, sabah Şah İsmayıl və Qızılbaşlığın mərkəzinin Orta Asiya olduğunu göstərən daha bir bədii filmin istehsalı bizi təəccübləndirməyəcək. "Yeməyənin malını yeyərlər" - demiş atalarımız, insan biganəliyinin göstərmək üçün. İndi qızılbaşlığı pisləyən tarixdən uzaq insanların mövcud olması kimi, Sovetlər Birliyi zamanında da kommunizm ideologiyasının dəyirmanına su tökən, massagetlərin və iskitlərin fars mənşəli olması fikrini dəstəkləyən insanlar yox deyildi və zənnimizcə bu hal daim var olacaq, kiminsə dəyirmanına su tökmək və kiminsə yolunun daşını təmizləmək kimi. Bu qrupa daxili proseslərə biganə qalaraq onları görməzdən gələn, təsirində olduğu ölkələrin gündəmi ilə yaşayanlar və onu azərbaycanlılara təbliğ edənlər də daxildir.

Azərbaycan tarixçiliyinin iki əsas problemi var: 1. Birinin digərinin fikrini əsaslı və ya əsassız qəbul etməməsi və nəticədə vahid fikrin formalaşmaması; 2. Əksər hallarda tarixçilərin susması və tarixlə əlaqəsi olmayanların tarixdən "professionalmış" kimi danışması; Məqaləmizdə ana xəttimiz tarix olduğu üçün bir neçə kəlimə də tarixçilik haqqında deməyi zəruri hesab edirik. Bütün universitetlərdə Tarix fakültəsi birinci kursda "Mənbəşünaslıq" və "Tarixşünaslıq" fənləri tədris olunur ki, burda da əlimizdə mövcud olan xam materialla necə davranmalı olmağımızı öyrənirik. Qısaca izah edərsək, aşağıdakı məsələlər tarixçi üçün vacibdir: mənbə nə zaman və hansı şəraitdə yaranıb; ilkin avtoqraf nüsxədirmi; əsərin necə təshih versiyası var; onlardan hansı naqis ola bilər; tərcümələrin transfoneliterasiyalardan fərqi nədir və bu yaradacağımız fikrə necə təsir edir. Adicə istinadın verilməsinin belə müxtəlif qaydaları vardır. Göründüyü ki, tarix hər hansı bir məlumatın eşidilməsi və ya hansısa bir monoqrafiyadan oxunması və anında cəmiyyətə çatdırılması qədər bəsit bir elm sahəsi deyil. Əgər siz birinci kurs tarix fakültəsində az öncə bəhs olunan kursları keçməmisinizsə, deməK ki, sizin tarixi hadisələr və şəxsiyyətlər haqqında söylədiyiniz fikrinizin də heç bir əsası yoxdur və fikriniz də qeyri - peşəkar söz yığınından ibarət bir mətndir. Çox təəssüflər olsun ki, indi hər kəs Azərbaycan tarixindən danışır, aidiyyəti olan da, olmayan da. Və yazıqlar olsun ki, çoxları da onların fikirlərini Quran ayəsiymiş kimi qəbul edir, inanırlar. Təsəvvür yaransın deyə bir misal çəkmə ehtiyacı duyduq. Mühəndis düşünün, ürək qan-damar xəstəliklərinin patoloji anatomiyasından danışır. Bu cəmiyyətimiz üçün nə qədər zərərli ola bilirsə, tarixə aidiyyəti olmayanların tarixdən danışması da bir o qədər zərərli, qeyri-peşəkar və lüzumsuzdur.




### *Xor görülən Şah İsmayıla əsl tarixçi baxışı*

Şah İsmayil və Qızılbaş ideologiyasına gəlincə ilkin qaynaqlardan heç bir sitat gətirmə ehtiyacı duymuruq. Ona görə ki, məqaləmizin məqsədi başqadır və Qızılbaşlıqla bağlı baş verənlər məqalənin ümumi məqsədinin yaranma səbəblərindən biridir. Məhz o səbəbdən bu məsələyə ötəri toxunmaqla kifayətləndik. Sufi-Dərviş cəmiyyəti, Qızılbaşlıq ideologiyası və şah I İsmayıl haqqında hər hansı bir fikir söyləmək üçün bir sıra faktorlardan xəbərdar olmaq labüddür. Məsələn, Sufizm, hürufizm və əxilik arasında nə qədər oxşarlıq və fərqlilik vardır? İslamın təməl məzhəblərindən biri olan Şiəliyin hansı qolu bu saydığımız islami cərəyanlarla qarışdı. Sufi-Dərviş cəmiyyətinin Qızılbaşlıq elementləri müxtəlif dövrlərdə nə qədər üstünlük təşkil etdi və niyə? Sufi - Dərviş cəmiyyətində nə zaman siyasiləşmə başladı və niyə? Niyə Sufi-Dərviş cəmiyyətində Sünnilik deyil Şiəlik meylləri oldu və bu təsir nə qədər oldu? İslam fiqhində bu məsələlər hansı vəziyyətdədir? Bəli. Bu suallara cavab vermədən Şah İsmayıla hansı haqla münasibət bildirilir, anlam verməkdə çətinlik çəkdiyimizi etiraf etməyə məcburuq. Bu suallara cavab vermək ən azı 10 illik tədqiqat, ərəb və fars dillərini bilərək həmin dilli ədəbiyyatlardan istifadə, Quranı bilməklə bir neçə cildlik kitab yazmaqdır. Bu istiqamətdə tədqiqat aparmış alimlərin fikirləri ilkin qaynaqlara müraciət etmə zərurətini ortadan qaldırır. Şah I İsmayıl haqqında ən dəyərli fikirlər Nyu-York Elmlər Akademiyasının üzvü, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və baza təhsili tarix olan Akademik Ramiz Mehdiyevə məxsusdur. Müəllif "Tarixi idrakın elmiliyi problemlərinə dair" adlı araşdırmasında yazır: "Bəli, Şah İsmayıl Azərbaycan türklərinin dövlətini yaratmışdır. Mənim fikrimcə, bu, onun tarixi fəaliyyətinin zirvəsidir. Şah İsmayılın siyasi bioqrafiyasının bu cəhəti tarixi baxımdan bizim üçün daha mühüm, daha əhəmiyyətlidir, çünki Azərbaycan türklərinin müstəqil etnik element kimi ümumi oğuz massivindən ayrılması həmin dövrdən başlanır." (1, s. 11). Azərbaycan Səfəvi dövlətinin etnik mənşəyi, Sufi-Dərviş cəmiyyəti, xəlifətül-xüləfa institutu haqqında müasir Azərbaycan tarixçiliyinin yeganə səfəvişünas alimi olan Prof. Dr. Zabil Bayramlının (bir çoxlarından fərqli olaraq o hərşeyşünaslıqla deyil, sadəcə Səfəvi tarixinin tədqiqi ilə məşğuldur) tədqiqatlarını xüsusi vurğulamaq lazımdır (2; 3). Müəllif "Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu" adlı əsərində Məhəmməd Yusif Qəzviniyə istinadən yazır: "Şərur döyüşündən sonra İsmayıl darossəltəneye (paytaxt, mərkəz) Təbrizə üz tutdu və Azərbaycan şahlıq taxtına (təxte səltənete Azərbaycan) oturdu. Bütün Azərbaycan məmləkətində (dər təmam məmləkət-e Azərbaycan) onun adına xütbə oxundu, dinar və dirhəm zərb edildi" Əlavə şərhə ehtiyac olmayan bu parçadan aydın olur ki, Səfəvilər hansı coğrafi ərazidə yaranmışdır (2, s. 31).

**Ədəbiyyat**

**1. Mehdiyev R. Ə. Tarixi idrakın elmiliyi problemlərinə dair. Bakı: "Şərq-Qərb", 2013.**

**2. Bayramlı Z. H. Azərbaycan Səfəvi dövlətinin quruluşu və idarə olunmasında türk qızılbaş əyanlarının rolu. Bakı, 2015.**

**3. Bayramlı Z. H. "Silsilətün-nəsəbi Səfəviyyə" əsəri Azərbaycan tarixinin mənbəyi kimi. Bakı, 2019**

**4. Rahimli G. Background of the Kizilbash ideology // Sbornik nauçnıx rabot "Qileə: nauçnıy vestnik". Kiev, 2016, Vıpusk 114 (11). str. 137-141.**

**5. Keçid 1: https://president.az/articles/32112**

**6. Keçid 2: https://www.youtube.com/watch?v=e0eMx74E23l**

**7. Keçid 3: https://report.az/incesenet/opera-ve-balet-teatri-maestro-niyazinin-rast-baletini-numayis-etdirecek/**

**8. Keçid 4: https://www.youtube.com/watch?v=RJHmHOY6_vw**

**9. Herodotus History in Greek with an English translation by A. D. Godley. In four volumes. Vol. 1. London, 1928.**

**10. The Anabasis of Alexander of Arrian. Translated from Greek by E. J. Chinnock, London, 1884.**

**11. Procopius: History of the Wars in Greek with an English translation by H. B. Dewing. In six volumes. Vol. 3. London, 1919.**

**(ardı növbəti sayımızda)**

**Dos. Dr. Zaur Əliyev**
**Dr. Bayram Quliyev**